1 - 2_Layout 1 30.05.2021 12:16 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 10 (600)

1 iyun 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident İlham Əliyev: “Respublika Gününü Ağdam şəhərində qeyd etməyimizin çox böyük rəmzi mənası var”

**AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib.**

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz dostlar.

Bu gün Respublika Günüdür. İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, firavanlıq arzulayıram.

Görüşümüzün əvvəlində xahiş edirəm ki, İkinci və Birinci Qarabağ müharibələrində Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** Amin. Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək.



Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq.

Mən Ağdam rayonunda işğal dövründə doqquz dəfə olmuşam. Bildiyiniz kimi, şəhər işğal altında olduğu üçün rayonun mərkəzini biz Quzanlı qəsəbəsində müəyyən etdik. Quzanlı və digər kəndlərdə dəfələrlə olmuşam. Bu ərazi ilə bağlı bir çox tədbirlər keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində Ağdam rayonunun quruculuqla bağlı inkişaf planları təsdiq edilmişdir. Burada bir çox sosial layihələr icra edildi, bir çox məktəblər, Muğam Mərkəzi, uşaq xəstəxanası, mərkəzi rayon xəstəxanası, Olimpiya Mərkəzi, infrastruktur layihələri icra edilmişdir və deyə bilərəm ki, ölkə üzrə olan göstəricilərdən daha da yüksək göstəricilər burada var. Qazlaşdırma təxminən 100 faizdir, elektrik enerjisi, su ilə təchizat təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır. Çünki mənfur düşmən bu bölgəni sudan da məhrum etmişdi. Bir sözlə, işğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşlər əsnasında deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq. Bu gün sizə təqdim ediləcək Ağdam şəhərinin Baş Planı bu sözümün təsdiqidir. Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır.

İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən özözümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq.

Çalışırdıq ki, bunu sülh yolu ilə həll edək. Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora – işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil.

Əgər mən Prezident kimi birinci mərhələdə müəyyən ümidlərlə yaşayırdımsa, son mərhələdə artıq bu ümidlər də aradan qalxdı. Çünki Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda, faktiki olaraq, danışıqlar prosesinə son qoyuldu. Mən bunu açıq-aydın bildirirdim. Bütün danışıqlar dövrü – 2003-cü ildən son hadisələrə qədər hər zaman Azərbaycan xalqına həqiqətləri çatdırırdım. Hər zaman deyirdim ki, biz heç vaxt bizim torpağımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Deyirdim, məsələnin həlli elə olmalıdır ki, bu, yarımçıq həll olmasın. Məhz buna görə bizim mövqeyimiz bir çox hallarda vasitəçilər tərəfindən birmənalı qarşılanmırdı. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə Ağdam rayonuna binoklla baxarkən, bax, mən bu günü görürdüm və bilirdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır. Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi.

Qırx dörd günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər.

Biz müharibə dövründə də özümüzü ləyaqətlə aparmışıq və müharibənin bütün qaydalarına riayət etmişik. Məhz buna görə Ermənistan tərəfində mülki vətəndaşlar arasında itkilər həddindən artıq azdır. Biz ancaq işğalçı orduya qarşı mübarizə aparmışıq, müharibə aparmışıq. Dinc əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq. Ermənilərdən fərqli olaraq, soyqırımı törətməmişik və digər hərbi cinayətlər törətməmişik. Ancaq ermənilərin törətdikləri cinayətlər artıq bütün dünyaya bəllidir: Xocalı soyqırımı, digər kəndlərimizin sakinlərinin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması. Baxın, görün, Ağdam şəhəri yoxdur, yoxdur. Bir bina da yoxdur. Bir Cümə məscidinin qalıqları qalıb. Onu da mən demişəm, onlar iki məqsəd üçün saxlamışdılar. Bir məqsəd o torpağa bağlı olan bir işarə idi. Yəni, artilleriya atəşinin tənzimlənməsi üçün lazım idi bu məntəqə, bu obyekt. İkinci məqsəd müşahidə məntəqəsi idi. Məscidin minarələrindən onlar müşahidə edirdilər. İndi mən müharibədən sonra Ağdama ikinci dəfə səfər edirəm. Birinci dəfə Ağcabədi istiqamətindən gəldim. Bu dəfə isə Bərdə istiqamətindən gəldim. Hər iki istiqamət üzrə bir neçə müdafiə xətti var, istehkamlar var. Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yadplanetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü. Bunun da bir neçə məqsədi var idi. Birincisi, bizə olan nifrət. İkincisi, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədi və əlbəttə ki, gələcəkdə elə bir vəziyyət yaratmaq ki, Azərbaycan əhalisi bu torpaqlara qayıda bilməsin.

Ancaq səhv etdilər. Onlar dərk edə bilmədilər ki, bizim üçün, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt biz bu vəziyyətlə barışmadıq və bunu açıq bəyan edirdik. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Ermənistan isə məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə bura deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Mən maşınla yüz kilometrlərlə torpaqları gəzərkən gördüm ki, sağda-solda hər şey dağıdılıb, talan edilib. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Mən bunu demişəm, bir daha burada Respublika Günündə Ağdam şəhərində demək istəyirəm, bizim müharibəmiz təkcə faşist Ermənistan dövlətinə qarşı deyildi, bizim müharibəmiz faşizm əleyhinə müharibədir. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, bax, ermənilərin aqibətinə bənzər olacaq.

Müharibə ilə bağlı, əlbəttə ki, çox danışmaq olar. Ancaq bu gün biz daha çox gələcəklə bağlı danışmalıyıq. Müharibə tarixdir, şanlı tariximizdir. Bu tarix əbədi qalacaqdır, bu tarix dərindən öyrənilməlidir və öyrənilir. Dünya miqyasında, dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibə öyrənilir və Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir. Əlbəttə ki, texniki imkanlarımız müharibənin nəticələrinə ciddi təsir etmişdir. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Dırnaqarası qəhrəman erməni əsgərləri bizim əsgərlərimizi görərkən müharibənin artıq ikinci mərhələsində silahları yerə qoyub qaçırdılar, bu gün də qaçırlar.

Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Mayın 26-da Daxili İşlər Nazirliyində Bakı şəhərində baş tutacaq beynəlxalq idman tədbirləri - “Formula-1” və futbol üzrə Avropa çempionatının 4 oyununun keçiriləcəyi müddətdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini zamanı qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına evsahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.





Bu ilin iyun-iyul aylarında keçiriləcək beynəlxalq idman tədbirləri zamanı da gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyini diqqətə çatdıran nazir, builki yarışların pandemiya dövrünə təsadüf etdiyini və bununla əlaqədar müəyyən məhdudiyyətlər şəraitində təşkil olunacağını bildirib.

Nazir Vilayət Eyvazov keçiriləcək oyunlar zamanı iştirakçıların, azarkeşlərin və ölkəyə gələn qonaqların təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, şəhər ərazisindəki azarkeşlərin toplanma məntəqələrində təhlükəsizliyin gücləndirilməsi barədə tələb və tövsiyələrini verib.

2_Layout 1 30.05.2021 11:14 Page 1



# Şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığı xidmətdə uğurlara zəmin yaradır

67987 saylı hərbi hissənin qabaqcıl bölmələrindən biri də polkovnik-leytenant Ramin Kərimovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Bölmə öz təyinatından irəli gələn bütün növ tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Bölmənin xidməti fəaliyyətində əldə etdiyi uğurlar bunu deməyə əsas verir.



Dəstə komandiri ilə həmsöhbət olduqda, ilk olaraq, dəstənin 44 gün davam edən Vətən müharibəsi zamanı, həmçinin, qələbənin əldə olunmasından sonra işğaldan azad edilmiş torpaqlarımızda yerinə yetirdiyi xidməti tapşırıqlardan danışdı. Bölmənin komandir heyətinin peşəkarlığının, idarəetmə qabiliyyətinin yüksək olduğunu, ümumiyyətlə, hərbi qulluqçuların qətiyyət və bacarıqla bütün tapşırıqların öhdəsindən gəldiklərini vurğuladı.



Polkovnik-leytenant R.Kərimov bildirdi ki, şəxsi heyət Vətən müharibəsinin başladığı 27 sentyabr 2020-ci il tarixində 16077 saylı hərbi hissəyə ezam olunub, burada olduğu müddətdə erməni silahlı birləşmələrinin iriçaplı silahları və artilleriya qurğularının atəşi altında olan Tərtər rayonu ərazisində daxili işlər orqanları ilə birlikdə ictimai təhlükəsizliyin mühafizəsi üzrə xidmətə cəlb olunub.

16 oktyabr 2020-ci il tarixdən 8 noyabr 2020-ci il tarixədək Xocavənd rayonunun Hadrut qəsəbəsi və müxtəlif kəndlərinin ərazisində axtarış, düşmənin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması tədbirlərinə cəlb olunan bölmənin şəxsi heyəti düşmənin xeyli sayda silah-sursatını, hərbi texnikasını və əmlakını aşkar edərək aidiyyəti üzrə təhvil verib. Həmçinin, polis əməkdaşları ilə birlikdə post-patrul xidmətini təşkil edib, kənar şəxslərin rayonun ərazisinə qeyri-qanuni daxil olmasına və stasionar postlardan əmlakların və yüklərin icazəsiz keçirilməsinə yol verilməməsi üzrə tapşırıqları yerinə yetirib.

Bölmənin şəxsi heyəti 8 noyabr 2020-ci il tarixdə Şuşa şəhəri uğrunda son döyüşdə də iştirak edib. Şuşa şəhəri işğaldan azad olunduqdan sonra orada axtarış, mühüm əhəmiyyətli strateji obyektlərin mühafizəsi, komendant postlarında buraxılış rejiminə nəzarət, həlak olanların yerinin müəyyən edilməsi və cəsədlərin dəyişdirilməsi üzrə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, eləcə də Rusiya Federasiyası sülhməramlı qüvvələrinin hərbi qulluqçuları ilə əlaqəli şəkildə xidmətə cəlb olunub.



Vətən müharibəsi zamanı bölmənin şəxsi heyətindən 1 nəfər - çavuş Ramazan Vəliyev (ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub) şəhid olub, 15 nəfər yaralanıb.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran polkovnik-leytenant R.Kərimov söhbət əsnasında bu sahədə ona yaxından köməklik göstərən tabeliyində olan bölmə komandirlərinin əməyini xüsusi vurğuladı.

Dəstə komandiri təlim və məşğələlərdə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan, həmçinin, funksional vəzifələrini nümunəvi yerinə yetirməklə komandirlərinin rəğbətini və hörmətini qazanan hərbi qulluqçulardan gizir Elmir Namazov, baş çavuşlar Zabit Səlimov, Rəhim Rəhimov, kiçik çavuş Taleh Cəlilov, baş əsgər Mahir Qədəşov, əsgərlər Bilal Bayramlı, Səxavət Mirzəyevin adlarını qeyd etdi.

Görülən işlərin nəticəsidir ki, bölmə hərbi hissə üzrə birincilər sırasındadır.

**kapitan Sadıq Rəfiyev**

# HƏRBİ HİSSƏLƏRİN MİNAATAN BATAREYALARININ ŞƏXSİ HEYƏTİ İLƏ DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİM KEÇİRİLİB

Mayın 18-dən 22-dək Müdafiə Nazirliyinin Goranboy rayonunda yerləşən Təlim mərkəzində 16077, 16073 və 17074 saylı hərbi hissələrin minaatan batareyalarının şəxsi heyəti ilə döyüş atışlı taktiki təlim keçirilib. İlk olaraq, təlimin təşkili və keçirilməsi üçün planlaşdırıcı sənədlər hazırlanıb. Təlimin ilk günündə hərbi qulluqçularla təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ təşkil olunub, şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib.





Daha sonra hərbi hissələrin minaatan batareyalarının hərbi qulluqçuları ilə xüsusi taktiki və ixtisas məşğələləri, atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, döyüş əmrinin hazırlanması, ərazinin xəritəsindən istifadə edərək hədəfləri müəyyən etməklə atışların keçirilməsi, artilleriya atışı və onun idarə olunması üzrə məşğələlər təşkil olunub.

Bundan əlavə, Təlim mərkəzində 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin qrup, yarımqrup komandirləri ilə artilleriya bölmələrinə hədəfgöstərmə və atışa xidmət tapşırıqlarının icra edilməsi üzrə praktiki fəaliyyətləri məşq etdirilib.

Təlimlərin keçirilməsi zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı həyata keçirilib. Təlim zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunub və xəsarətalma hallarına yol verilməyib.

Sonda artilleriya və minaatan bölmələrin hazırlığının yoxlanılmasının və keçirilmiş döyüş atışlı taktiki təlimin nəticələri ilə əlaqədar aidiyyəti üzrə şəxslərlə yekun keçirilib, aşkar olunmuş nöqsanlar üzrə müvafiq tapşırıq və tövsiyələr verilib.

**Mətbuat xidməti**

# Peşəkar pilot və mütəxəssislər vəzifələrini məsuliyyətlə yerinə yetirirlər

"Əsgər" qəzetinin ötən saylarında Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçuları barədə materiallar dərc olundu. Budəfəki sayımızda isə hərbi hissənin helikopter manqasının hərbi qulluqçularının xidmətini işıqlandıracağıq.



Hərbi hissənin helikopter manqasında baş pilot mayor Emil Manafov icraçılığına, iş qabiliyyətinə və döyüş hazırlığına görə seçilən zabitlərdən biridir. O, 2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. 2019-cu il oktyabrın 1-dən helikopter manqasında baş pilot vəzifəsindədir.

Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan mayor E.Manafovun şəxsi heyət arasında böyük hörməti var. Hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayevin dediyinə görə, zabitin gündəlik fəaliyyəti və müsbət keyfiyyətləri şəxsi heyətə nümunədir. Hər zaman öz üzərində işləyir, peşəkarlıq səviyyəsini artırır. Belə ki, xidmət etdiyi müddət ərzində o, bir çox kursda iştirak edərək, nəzəri biliklərini və təcrübəsini daha da təkmilləşdirib.



Mayor E.Manafovla söhbət zamanı məlum oldu ki, uçuşdan bir gün öncə uçuşa hazırlıq həyata keçirilir. İlk olaraq, helikopterlərə texniki heyət tərəfindən baxış keçirilir, texniki qulluq göstərilir və müvafiq reqlament işləri aparılır. Bu zaman nasazlıqlar aşkar olunarsa, dərhal aradan qaldırılır. Uçuşun həyata keçirildiyi gün heyət üzvlərinin qarşısına qoyulan müvafiq tapşırıq xəritə üzərində müzakirə edilir, marşrutun uzunluğu, hava şəraitinə uyğun olaraq helikopterin yanacağı və yükün çəkisi hesablanır. Baş pilot qeyd etdi ki, helikopterlər 4 tona qədər yük, 24 nəfər desant və ya 12 nəfər yaralı götürə bilər. Helikopterin öz çəkisi ilə birlikdə ümumi yükün çəkisi 13 tondan artıq ola bilməz: "Xəritə üzərində müvafiq hesablama işləri aparılan müddət ərzində borttexnik-təlimatçı kapitan Kənan Nəsibov bortu hazırlayır, helikopterə baxış keçirir və helikopterin vəziyyəti, nasazlıqlar varsa, onların aradan qaldırılması, yanacaqla tam təmin edilməsi, yükün miqdarı və ümumilikdə, bortun uçuşa hazır olması barədə manqa komandirinə məruzə edir. Sonra yenidən birlikdə helikopterə ümumi xarici baxış keçirilir və problemlər aşkar olunmazsa, helikopter uçuşa hazırlanır. Helikopterlərlə paraşüt-desantların, yük və xüsusi yüklərin, yaralıların daşınması və aidiyyəti üzrə çatdırılması, axtarış-xilasetmə və kəşfiyyat işlərinin aparılması həyata keçirilir".

Helikopter manqasında pilot-şturman mayor Emin Manafov da təcrübəli mütəxəssis kimi vəzifələrini dərindən bilir, peşə hazırlığını daim təkmilləşdirmək üçün səylə çalışır. O da əkiz qardaşı Emil kimi peşəsinə olan rəğbəti, müsbət fərdi keyfiyyətləri ilə fərqlənir. Şturman hesablamalarını tez və dəqiq yerinə yetirməyi, uçuşun proqramlaşdırılması üçün ilkin məlumatları təyin etməyi bacarır və uyğun uçuş proqramını tərtib edir, İdarəetmə Mərkəzindən verilən komandaları vaxtında və düzgün yerinə yetirir.

Borttexnik-təlimatçı kapitan Kənan Nəsibov isə uçuş aparatının döyüş hazırlığına, sazlığına, uçuşlara tam keyfiyyətlə hazırlanmasına, avadanlıqların sazlığına nəzarət edir. 2011-ci ildə Daxili Qoşunların 17077 saylı hərbi hissəsində aviasiya avadanlıqları reqlament və istismar qrupunda baş texnik vəzifəsinə təyin olunub. Xidmətə gəldiyi ilk gündən özünə qarşı tələbkarlığı, işinə məsuliyyəti ilə seçilir. Bacarıqlı zabit, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Dəfələrlə müxtəlif ixtisasartırma kurslarında iştirak edib, sertifikatlara layiq görülüb.

**kapitan Xədicə Hacızadə**

# Etibarlı mühafizə və sayıqlıq komendant bölüyünün xidmətinin başlıca xüsusiyyətidir

16077 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də komendant bölüyüdür.



Döyüş bayrağının və hərbi hissənin obyektlərinin etibarlı mühafizəsi və müdafiəsini təmin edən komendant bölüyünün hərbi qulluqçuları tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkili olduqca vacibdir. Hərbi hissənin etibarlı mühafizəsi isə qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır. Bu baxımdan bölükdə xidmət edən şəxsi heyət bilik səviyyəsi və dünyagörüşü nəzərə alınmaqla, yüksək döyüş hazırlığına, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə malik, intizamlı, nümunəvi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arasından seçilir.

Bölük komandiri kapitan Rafil Şükürov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilməmişdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat məşğələsi keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilməmişdən bir gün öncə tərbiyə işləri üzrə bölmədə təlimatçı-psixoloq kapitan Vasif Hüseynov tərəfindən hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır.



Kapitan R.Şükürov onu da dedi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir: "Bölükdə mövcud olan hərbi intizam və yüksək döyüş hazırlığını saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmindəyik. Bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir".

Bölük komandirinin müavini baş leytenant Rəyasət Əliyev, taqım komandirinin müavini gizir Ceyhun Məhərrəmov, baş əsgər Rüstəm Hüseynov, əsgərlər Uğur Əliyev, Vadim Kaçukbekov, Rüfət Mirzəmmədov bölüyün gündəlik həyatında müsbət cəhətdən xarakterizə olunan hərbi qulluqçularındandırlar.

Sonda şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunması barədə məlumat verən komandir bu məsələnin hər zaman diqqətdə saxlandığını, burada hərbi qulluqçuların istirahəti üçün lazımi şərait yaradıldığını sözlərinə əlavə etdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti hər zaman nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**baş leytenant Nigar Ağayeva**

3 - 2_Layout 1 30.05.2021 11:39 Page 1



*Şəhidlərimiz*

# Həyatını fəda etdi ki, müqəddəs Vətən yaşasın...

Vətən torpağını düşmən tapdağından azad etmək naminə fədakarcasına vuruşaraq həyatını qurban verən hər bir şəhid haqqında məqalə yazmaq jurnalist üçün, ilk növbədə, öz üzərinə mənəvi məsuliyyət götürmək deməkdir. Çünki belə qeyrətli oğulların şərəfli döyüş yolu onların xatirəsinə layiq şəkildə işıqlandırılmalı və tarixləşdirilməlidir. Onlar barədə deyilən fikirlər və yazılan sözlər bir yaddaş yadigarıdır. Bu yaddaş yadigarının qorunub saxlanılması üçün qələm adamı öz həssas münasibətini əsirgəməməlidir.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinin 44 gün davam edərək ordumuzun Şuşa zəfəri ilə başa çatması inkaredilməz bir həqiqəti ortaya qoydu - biz güclüyük, qalibiyyət isə haqqımızdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev ölkəmizin misilsiz hərbi zəfəri barədə deyib: "Müzəffər Ordu onun qarşısında duran vəzifənin öhdəsindən məharətlə gəlib. Müzəffər Ordu hədəfinə çatdı. Hədəf ərazi bütövlüyümüzün bərpa edilməsi idi və Azərbaycan hərbi qələbəni qazandı. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq".

İkinci Qarabağ müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin ayrı-ayrı qoşun növlərinə məxsus xüsusi təyinatlı bölmələr üçün əsl ölüm-qalım sınağı, yenilməzlik imtahanı oldu. Xüsusi təyinatlılar üzərlərinə düşən döyüş missiyasını başucalığı ilə yerinə yetirdilər. 44 günlük döyüş yolu Azərbaycan xüsusi təyinatlıları fenomenini dünyaya tanıtdı. Fəxr edirik ki, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları da Vətən müharibəsində Ali Baş Komandanın etimadını doğrultdular.

Şəhid xüsusi təyinatlı gizir Həsənov Faiq Hüseyn oğlu Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmət edib. Silahdaşımızın döyüş meydanında sona çatan 30 illik ömür yolunun bir çox məqamı barədə məlumat topladım.

O, 1990-cı il iyulun 28-də Bakı şəhərində anadan olub. Hüseyn Həsənov və Yeganə Həsənovanın qurduğu ailənin böyük övladı idi. Onun iki bacısı və bir qardaşı var.



Faiq paytaxtın Səbail rayonunda yerləşən Osman Mirzəyev adına 190 saylı orta məktəbi bitirib. Həmin məktəbdə, yaşadığı məhəllədə, birgə məşq etdiyi və yarışdığı idmançılar arasında şəxsi keyfiyyətlərinə görə özünə hörmət qazanıb. Yeniyetməlik yaşlarından idmana həvəslə yanaşıb, fiziki hazırlığına daim diqqət yetirib. Yunan-Roma güləşi üzrə Bakı şəhər birinciliyi uğrunda yarışlarda məharət göstərərək qalib yerləri tutub. Bununla yanaşı, "Şahin" hərbi-idman oyunlarında da uğurla iştirak edərək, müvafiq dərəcəli diplomlarla mükafatlandırılıb.

2008-2012-ci illərdə Faiq Mingəçevir Politexnik İnstitutunda (hazırda Mingəçevir Dövlət Universiteti) ali təhsil alıb. Burada iqtisadiyyatın tənzimlənməsi ixtisasına yiyələnib. Tələbə olaraq da təhsil aldığı kollektivdə müsbət cəhətdən xarakterizə olunub.

2012-2013-cü illərdə Faiq Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Həmin vaxtdan etibarən gələcək həyatını iqtisadçı peşəsinə deyil, hərbi xidmətə bağlamaq haqqında fikirlərini doğmaları ilə bölüşüb. Hərbçi peşəsi, xüsusi təyinatlıların xidməti onun qəlbində rəğbət doğururdu.

Birinci Qarabağ müharibəsi zamanı ön cəbhəyə könüllü yollanaraq torpaqlarımızın müdafiəsində şəhid olmuş əmisi Elşən Həsənovun, həmin dövrdə döyüşlərdə iştirak etmiş digər əmilərinin, habelə xətrini çox istədiyi dayısı, 1989-1991-ci illərdə Qazax-Ağstafa bölgəsində erməni işğalçılarına qarşı vuruşmuş qazi Mahir Rzayevin keçdikləri çətin sınaqlar gəncin həyata baxışlarına təsirsiz qalmayıb, onun üçün vətənpərvərlik örnəyi olub.

2015-ci ilin avqust ayında Faiq Daxili Qoşunların sıralarına hərbi xidmətə qəbul edilib. Daxili Qoşunlarda xidmət etməyə qərar verməsində qohumu, Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı, Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin rəisi polkovnik Aydın Zahidovun rolunu xüsusi vurğulamaq yerinə düşər. Zəngin xidmət təcrübəsinə malik polkovnik A.Zahidov gənc hərbi qulluqçuya Daxili Qoşunlarda hərbi xidmətlə bağlı vacib tövsiyələr verib.

2015-2020-ci illərdə Faiq 16075 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsində manevr qrupunun yarımqrupunda atıcı, xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində götürmə qrupunun yarımqrupunda atıcı və xüsusi təyinatlı dəstədə texnik vəzifələrində xidmət edərək, ona göstərilən etimadı doğruldub. Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında əzmkarlığı ilə fərqlənib.

2017-ci ildə atasının xəstəlikdən qəfil vəfat etməsi Faiqi çox sarsıdıb. Böyük övlad kimi ailənin qayğılarını öz üzərinə götürüb, anasının işləməsinə razı olmayıb, Yeganə xanıma mənəvi dayaq olub, bacıları və qardaşı da ona həmişə güvəniblər. Əzizləri Faiqin ailə quracağı günü səbirsizliklə gözləyirdilər, ancaq taleyin öz hökmü vardı...

2020-ci ilin 27 sentyabrında erməni işğalçılarına qarşı Vətən müharibəsi başlayanda gizir F.Həsənov döyüş əməliyyatlarına ilk cəlb olunanların sıralarında idi. O və silahdaşları torpaqlarımızı uzun illər işğal altında saxlayan düşməndən qisas alındığı vaxtın yetişməsini ruh yüksəkliyi ilə qarşılayıblar. Tərkibində olduğu qrup və birgə hücuma keçən digər qruplar müharibənin ilk günlərində Cəbrayıl-Füzuli rayonlarının ərazilərində çətin döyüş tapşırıqlarını yerinə yetiriblər. Belə ki, düşmənin bir neçə müdafiə xəttini yarmaq, onun müqavimətini qırmaq, müxtəlif növ silah-sursat, texnikasını məhv etmək və ya qənimət götürmək, nəzarətimizə keçən ərazilərdə möhkəmlənmək üçün hərbi qulluqçularımız qətiyyətlə vuruşublar. İlk döyüşlərdəcə işğalçılar dar-madağın edilib, bizim qüvvələrin gücü zərbələrinə tab gətirə bilməyiblər.

16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcı çavuş Sirus Müsüzadə Faiqin döyüşçü yoldaşı kimi onunla



bağlı xatirələrini mənə danışdı. Bildirdi ki, Faiq cəsurluqla döyüşürdü, həmişə öndə idi, hər bir çətinliyə dözürdü, o, müharibə gerçəkliyində yoldaşlarına diqqətcil və qayğıkeş olmağı da bacarırdı. İşğaldan azad edilən torpaqlarımızda irəliləyərkən "bu yerləri görmək və ilk qədəm basmaq bizə qismət oldu" - deyib.

Sirus məlumat verdi ki, 2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ətrafında döyüş zamanı düşmən artilleriyasından şiddətli atəş nəticəsində Faiq qapalı kəllə-beyin travması alıb. Əhmədbəylidəki hərbi qospitalda yerləşdirilərək, bir neçə gün müalicə olunub. Dayısı qospitalda onun yanına gəlib. Bakıda müalicəsinin davam etdirilməsinin zəruriliyini, qoyulan diaqnozun ciddiliyini Faiqə söyləyib. Ancaq dayısının təkidinə baxmayaraq, Faiq döyüşlər başa çatanadək Bakıya getməyəcəyini bildirib.

Oktyabrın 5-də səhhətindəki problemə baxmayaraq, Faiq qospitaldan öz istəyi ilə çıxıb və həmin gün döyüş tapşırığının yerinə yetirilməsinə cəlb olunub. 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarovun dediyinə görə, oktyabrın 5-də gizir F.Həsənov, dəstənin digər hərbi qulluqçusu gizir Mayis Səmədov bir qrup silahdaşı ilə birgə Cəbrayıl-Füzuli rayonları istiqamətində ön mövqeyimizə lazımi təminat çatdırmaq, oradakı yaralılarımızı çıxarmaq üçün gedərkən yolda düşmənin pusqusuna düşüblər. Qeyri-bərabər döyüşdə Faiq, Mayis, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin 6 nəfər xüsusi təyinatlısı son nəfəslərinədək mərdliklə vuruşaraq şəhidlik zirvəsinə ucalıblar. İşğalçılar da o döyüşdə itki veriblər.

Bakı şəhərindəki 1 saylı "ASAN xidmət" mərkəzi tərəfindən 10.10.2020-ci il tarixdə verilən ölüm haqqında şəhadətnamədə gizir F.Həsənovun 2020-ci il oktyabrın 5-də Füzuli rayonunda döyüş zamanı qarının dəlib keçən güllə yarası, döş qəfəsinin güllə yaralanmasından həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz Bakıda 2-ci Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli, 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, Azərbaycan Respublikası müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli müvafiq əmri ilə gizir F.Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Şəhidin məzunu olduğu 190 saylı orta məktəbdə və Mingəçevir Dövlət Universitetində Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ehtiram göstərilir. Hər iki təhsil müəssisəsindən verilən məlumata görə, şagird və tələbələrlə xalqımızın igid oğullarının şücaət nümunələri barədə söhbətlər aparılır, şəhidlərin məzarları ziyarət olunur. Bu məktəb və universitetin yetirmələri olan şəhidlərin şəkillərini əks etdirən xatirə guşələri yaradılıb.

Bu yazını şair Rəhman Bayramın "Şəhidlər" şeirindən bir bəndlə yekunlaşdırıram:

*Ölüb qovuşdular ölümsüzlüyə,*
*Şəhidlik adında uca zirvəyə,*
*Can verdilər, Vətən yaşasın deyə,*
*Millətin ruhuna dayaq şəhidlər.*

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# Vətəninə və xalqına layiq gənc olduğunu döyüş sınağında sübut etdi

Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində misilsiz rəşadət göstərdi. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. Zəfərimizin tarixi məqamı isə 28 il yarım işğal altında qalan, hərbi-siyasi nöqteyi-nəzərdən strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin döyüş şücaəti göstərilərək azad edilməsi oldu. Döyüşçülərimiz dağlar, dərələr, meşələr keçərək, Şuşa şəhərində dişinə qədər silahlanmış düşmənə qarşı texnikasız, yüngül silahlarla, süngü-bıçaqla vuruşublar. Xalqımızın belə fədakar oğullarından biri də çavuş Əlizadə Nicat Elxan oğludur.

Çavuş Nicat Əlizadə 1994-cü il noyabrın 9-da Şirvan şəhərində anadan olub. 2002-2012-ci illərdə Şirvan şəhərindəki 3 saylı tam orta məktəbdə təhsil alıb.

2013-cü ilin yanvar ayından 2014-cü ilin iyul ayınadək Nicat Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini bitirməsinə baxmayaraq, torpaqlarımızın düşmən tapdağında olması Nicatı hər zaman narahat etdiyi üçün bundan sonrakı həyatını və işini hərbiyə bağlamaq qərarına gəlir. O, 2015-ci ilin avqust ayında Daxili Qoşunlarda müddətdən artıq xidmət etmək üçün sənədlərini verərək, 25033 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində radiotelefonçu-atıcı vəzifəsinə təyin olunub. 2017-ci ilin avqust ayında isə xüsusi təyinatlı dəstədə eyni vəzifəyə keçirilib. Vətən müharibəsi başlayana qədər bu vəzifədə xidmət edən Nicat xüsusi təyinatlıların sırasında torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qoşulub.

44 gün davam edən müharibə zamanı Daxili Qoşunların xüsusi təyinatlıları düşmənə amansız zərbələr vurub, onların qəhrəmanlıq nümunələri müasir hərb salnaməmizə yazılıb.

Əvvəlcə Xocavənd rayonunun Hadrut qəsəbəsində və Füzuli rayonunda mövqelərimizin müdafiəsi, ermənilərin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirən qazimizin daxil olduğu qrup sonra Şuşaya doğru istiqamət alıb.

Döyüşçülərimiz Şuşaya meşə və dağ keçidlərini aşaraq həmlə ediblər. Onlar



Hadrutdan Şuşa istiqamətində hərəkət edərkən düşmənin minaatanlardan və tanklardan atəşinə məruz qalıblar. Yaralı və şəhidlərin olmasına baxmayaraq, Nicatın da daxil olduğu qrup Şuşa-Xankəndi yolu istiqamətində irəliləyib. Onlara Şuşadan Xankəndiyə gedən yolu nəzarətə götürmək tapşırığı verilib.

Qazimiz Şuşa ətrafında meşə və dərələrdə, Şuşa-Xankəndi yolunda gərgin döyüşlərin iştirakçısı olduğunu bildirdi. O qeyd etdi ki, Xankəndi istiqamətindən düşmən tanklardan və ağır artilleriyadan bizim qüvvələri atəşə tuturdu. Nicatın daxil olduğu və digər qruplar Şuşa-Xankəndi yolu üzərindəki yüksəklikdə yerləşən düşmən postlarını alaraq, Şuşaya gedən yolu nəzarətə götürüblər. Lakin Şuşa-Xankəndi istiqamətində qeyri-bərabər döyüşlərdə düşmən qüvvələrini məğlub edərək irəliləmək heç də asan olmayıb. Çünki düşmənin zirehli texnikası sürətlə mövqelərimizə doğru irəliləyirdi. Bu isə çoxsaylı əsgər ölümünə səbəb ola bilərdi. Nicat düşmənin bir neçə zirehli texnikasını sərrast atışları ilə sıradan çıxarıb, onun daxil olduğu qrupun irəliləməsində böyük şücaət göstərən, onunla birlikdə xidmət etmiş baş çavuş Kənan Kərimovun qəhrəmanlığının unudulmayacağını bildirdi.

Qazimiz noyabr ayının 6-da Xankəndi-Şuşa yolunda düşmənin tankdan atəşi nəticəsində mərminin yaxınlığına düşməsi nəticəsində yaralanıb. Düşmənin atəşindən yayınmaq üçün səngərə tullanarkən qəlpə onun sol əlinin 2 barmağını aparıb, əlindəki silahı isə 2 yerə bölüb.

Nicat yaralanan zaman ona 12318 saylı hərbi hissənin xüsusi təyinatlısı gizir Şiraz Həsənov ilkin tibbi yardım göstərdiyini söylədi: "Mənə dərhal Şiraz ürək-dirək verərək ilkin tibbi yardım göstərdi. Qanaxmanı dayandırmaq üçün qolumu jqutla möhkəm bağladı, sonra barmaqlarımın parçalanmasını görməyim deyə əlimi tənziflə sarıdı. Daha sonra mənim təxliyyə olunmağıma köməklik etdi".

Qazimiz müharibədə ən ağır sarsıntının gözlərinin önündə silahdaşlarının şəhid olduqları anlarda yaşandığını bildirdi. Yaralandığı zaman 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlısı baş əsgər Pərviz Həsənovun (ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib) yanında başından aldığı qəlpə yarasından şəhid olduğunu ürək ağrısı ilə qeyd etdi.

Nicat yaralanmasına baxmayaraq, 3 gün, Şuşanın işğaldan azad olunduğu günə qədər döyüş bölgəsindən ayrılmayıb. Noyabrın 8-i şəhərin azad olunması xəbərinin Azərbaycan Respublikasının Prezidentinə məruzə edilməsi onun ağrılarını belə unutdurub.

"Noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhəri Azərbaycan hərbçilərinin böyük qəhrəmanlığı, peşəkarlığı, milli ruhu sayəsində işğaldan azad edilib". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz nitqində deyib.

Azərbaycan Nicat kimi oğulları sayəsində üçrəngli bayrağını azad olunan torpaqlarımızın hər guşəsində dalğalandıra bilib.

Hərbi qulluqçumuz noyabrın 8-də sanitar maşını ilə Hadruta gətirilib. Şuşa azad edilən günün səhəri – noyabrın 9-da isə Füzuli Rayon Xəstəxanasına aparılıb. Tibb işçiləri Nicata xüsusi diqqət və qayğı göstərməklə yanaşı, həm də doğum gününü qeyd ediblər. Nicat üçün bu doğum günü həyatında heç vaxt unudulmayacaq bir doğum günü olub. O, bu yeni yaşında qürurlu anlar yaşadığını vurğuladı. "Vətənimi sevərək, onun layiqli övladı olmağa çalışmışam" deyən Nicat bildirdi: "Barmaqlarımı itirmişəm, canım belə Vətənə qurbandır. Uzun illər həsrətində olduğumuz Şuşamıza qovuşduq. Bu mənim və silahdaşlarımın həyatında ən dəyərli gündür".

Daha sonra bir gün Şirvan Xəstəxanasında müalicə alan qazimiz noyabrın 11-dən müalicəsini Daxili Qoşunların Hərbi Qospitalında davam etdirib.

Daxili işlər naziri Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunan yaralı hərbi qulluqçularımıza baş çəkərkən çavuş N.Əlizadənin vəziyyəti ilə də maraqlanıb. Nicatın sol əlinin iki barmağının olmamasına baxmayaraq, onun xidmətini polis orqanında davam etdirməsini təklif edib. Hərbi qulluqçumuz bu təklifi minnətdarlıq hissi ilə qəbul edib.

Hal-hazırda polis serjantı Nicat Əlizadə Şirvan Şəhər Polis Şöbəsinin ictimai təhlükəsizlik bölməsinin sahə polis nəfəri vəzifəsindədir.

25033 saylı hərbi hissədə "Gürzə" şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş kapitan Cavid Tağıyev dəstədə xidmət etmiş çavuş N.Əlizadənin Vətən müharibəsində tabeliyində olan qrupun tərkibində döyüşdüyünü bildirdi: "Yüksək iradə və cəsarət nümunəsi göstərən Nicat bir addım belə düşmənin güllə, mərmi atəşi altında geri çəkilməyib, hədəfə çatanadək düşmən üzərinə həmlələr edib".

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 25 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Nicat Əlizadə "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Nicat Vətəninə və xalqına layiq gənc olduğunu döyüş sınağında sübut etdi.

**kapitan Sadıq Rəfiyev**

# SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan azərbaycanlı

Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü il fevralın 1-də Şəki rayonunda anadan olub. Yeddi yaşında olarkən ata-anası və özündən böyük iki qardaşı ilə ailəlikcə Bakı şəhərinə köçüblər. Orta təhsilini başa vurduqdan sonra o vaxtkı Azərbaycan Sənaye İnstitutunun Energetika fakültəsinə daxil olub və oranı müvəffəqiyyətlə bitirib. 1941-ci ildə Bakı Zenit Artilleriya Məktəbində ilyarım oxuduqdan sonra ona "leytenant" hərbi rütbəsi verilib və döyüşlərə yollanıb.

Böyük Vətən Müharibəsində 1-ci Belarus cəbhəsində taqım komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi olub, Visla-Oder və Berlin əməliyyatlarında iştirak edib. Müharibə bitdikdən sonra T.Ağahüseynovun qulluq etdiyi diviziya 1946-cı ilin oktyabrına qədər Almaniyada qalıb.

O, 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, bunun ardınca Hərbi Artilleriya Akademiyasına daxil olub.

T.Ağahüseynov 1960-1964-cü illərdə Hövsanda yerləşən hava hücumundan müdafiə alayına komandirlik edib, 1964-cü ilin sonlarında Volqoqradda diviziya komandiri kimi xidmətini davam etdirib. 1968-ci ildə general-mayor rütbəsi alıb. 1969-cu ildən Rostovda yerləşən hərbi birliyə korpus komandiri təyin edilib.

1972-ci ildə general-leytenant rütbəsi alıb və 1975-ci ildə Bakı Dairəsi hava hü-



cumundan müdafiə komandanının birinci müavini təyin edilib. 1980-ci ildə general-polkovnik rütbəsini alan T.Ağahüseynova Bakı Dairəsi hava hücumundan müdafiə komandanı vəzifəsi həvalə edilib.

O, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan ilk azərbaycanlı olub. T.Ağahüseynov 1982-ci ildə Varşava Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunub.

Sovet ordusu sıralarından azad edildikdən sonra T.Ağahüseynov daimi yaşamaq üçün Bakıya qayıdıb.

O, üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1997-ci il 17 aprel tarixli sərəncamı ilə Tofiq Ağahüseynov prezidentin hərbi məsələlər üzrə köməkçisi təyin olunub.

Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb. O, "Qırmızı Bayraq", "Oktyabr inqilabı", I dərəcəli "Vətən müharibəsi", "Qırmızı ulduz" ordenləri ilə təltif olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 fevral 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda hərbi qulluqçuluq sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə, 17 yanvar 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni və 31 yanvar 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif olunub.

Böyük Vətən müharibəsi iştirakçısı, istefada olan general-polkovnik Tofiq Ağahüseynov 13 may 2021-ci ildə, 98 yaşında vəfat edib. İkinci Fəxri xiyabanda dəfn olunub.

# Şəxsi heyətin normaya uyğun, keyfiyyətli qidalanması diqqət mərkəzindədir

Yüksək döyüş hazırlığını qoruyub saxlayan 16077 saylı hərbi hissənin komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.



Ərzaq xidmətinin rəisi kapitan Elmar Əkbərov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabineti-



nin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür.

Xidmət rəisi şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını da bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Kapitan E.Əkbərov görülən işlərdə yeməkxana rəisi baş gizir Elbrus Paşayevin və ərzaq anbarının rəisi baş gizir Dilqəm Hasibovun əməyini xüsusi qeyd etdi. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini bildirdi.

Əlavə olaraq, kapitan E.Əkbərov ərzaq xidmətində sənədlərin qəbulu, dövriyyəsi və təsnifatında zəhməti olan xidmətin kargüzarı çavuş Səfa Kərimovanın fəaliyyətini də müsbət xarakterizə etdi. Hərbi intizamına, nümunəvi xidmətinə görə qadın hərbi qulluqçuların içində fərqləndiyini və daim funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşdığını xüsusi olaraq vurğuladı.

**baş leytenant Nigar Ağayeva**

*Nümunəvi xidmət*

# Peşəkar rabitəçi kimi xidməti fəaliyyətində əzmkarlıq göstərir



Daxili Qoşunların Dayaq rabitə qovşağında texnik-rabitə üzrə növbətçi gizir Bəhri Məlikov nümunəvi xidmətilə seçilən hərbi qulluqçularımızdandır. Dayaq rabitə qovşağının rəisi mayor Abbasəli Mehdiyev onu intizamlı, vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçu kimi xarakterizə edir. Öz bilik və bacarıqlarını daim artırmaq üçün əlindən gələni əsirgəmir.

Gizir B.Məlikov 1981-ci il sentyabr ayının 4-də Xızı rayonunun Xələnc kəndində doğulub. 1997-2001-ci illərdə Bakı Rabitə Kollecində (hazırda Bakı Rabitə və Nəqliyyat Kolleci) "Radiorabitə, radio verilişləri və televiziya" ixtisası üzrə təhsil alıb. 2003-2010-cu illərdə Xızı Telekommunikasiya Qovşağında sahə rəisi işləyib. 2010-cu ilin sentyabr ayından Daxili Qoşunların sıralarında xidmət edir. Müxtəlif vəzifələrdə çalışıb və 2017-ci ilin iyun ayından hazırkı vəzifədədir. O, bütün döyüş postlarında rabitənin vəziyyətini nəzarətdə saxlayır, nasazlıqlar olduqda dərhal onların aradan qaldırılmasını təmin edir. Həmçinin, telefon şəbəkəsində baş verə biləcək dəyişikliklərə, istismar olunan telefon şəbəkəsi sisteminin, radiostansiyalar, qida qurğuları və köməkedici vasitələrin sazlığına daim diqqət yetirir.

Gizir B.Məlikov qeyd edir ki, şəxsi heyət hər iki gündən bir xidmətə cəlb olunur. Növbədə olarkən hərbi hissələr ilə rabitə əlaqəsi təşkil edilir, rabitə sisteminin sabit və mükəmməl işləməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir. Bundan əlavə, xidmət zamanı döyüş postlarının növbətçiləri ilə mütəmadi əlaqə yaradılır və bütün növ məlumatların vaxtında və dəqiqliklə ötürülməsi təmin olunur.

Hərbi qulluqçumuz şəxsi heyətlə gündəlik olaraq təşkil olunan məşğələlər barədə məlumat verərkən söylədi ki, əsas diqqət rabitəçilərin bilik və bacarıqlarının, peşə vərdişlərinin daim artırılmasına yönəlib. Hər gün ixtisas üzrə yeni mövzular ətrafında hazırlıqların artıran rabitəçilərimiz müasir qurğulardan istifadə qaydalarını həm nəzəri, həm də praktiki olaraq mənimsəyirlər.

Biz də öz növbəmizdə, nümunəvi hərbi qulluqçumuza bundan sonra da xidmətində nailiyyətlər arzulayır, uğurlarının davamlı olmasını diləyirik.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# DONDURMANI ALARKƏN ONU YOXLAMAQ QAYDASI VƏ İSTEHLAK ETMƏYİN FAYDASI

Havaların isinməsi ilə əlaqədar dondurmaya olan tələbat artır. Ona görə də marketlərlə yanaşı, parklarda və yol kənarlarında dondurma satışı ilə məşğul olanlara rast gəlinir. Dondurma alarkən mütləq şəkildə qablaşdırmanın üzərində olan etiket məlumatlarını oxumaq lazımdır. Məhsulun istehsal tarixi, istifadə üçün yararlılıq müddəti, qida dəyəri göstəriciləri, xüsusilə yağ tərkibinə diqqət yetirmək lazımdır. Küçə və parklarda açıq şəraitdə qablaşdırılmamış silindr qablarda satılan dondurmaları alarkən məhsulun saxlanılma şəraitinə fikir vermək xüsusilə vacibdir.

AZƏRTAC bildirir ki, bu barədə Qida Təhlükəsizliyi Agentliyinin dondurma haqqında olan maarifləndirici materialında xəbər verilir.

Dondurmaların digər qida məhsulları ilə bir yerdə saxlanılması tövsiyə edilmir, çünki digər qidalarla eyni soyuducuda saxlanılması məhsulun orqanoleptik göstəricilərinə (iyi, dadı), keyfiyyətinə təsir etməklə yanaşı, onun tərkibində mikroorqanizmlərin inkişafına da səbəb olur. Nəzərə almaq lazımdır ki, dondurma istehsalında xammal olaraq istifadə olunan süd mikroorqanizmlərin inkişafı üçün əlverişli mühitdir. Bunun üçün də dondurma pasterizasiya olunmuş süddən hazırlanmalı və istehsal olunduqdan sonra soyuq zəncir prinsipinə uyğun olaraq saxlanılmalı və daşınmalıdır.



Dondurma homogen şəkildə olmalıdır. Əgər dondurmanın tamlığı pozularsa və ya istehlak edərkən içərisində buz kristalları müşahidə edilərsə, bu, dondurmanın açıldığdan sonra təkrar dondurulduğunu göstərir. Həmin məhsulların istehsal tarixi bitməsə də, istehlakı tövsiyə edilmir. Saxlanma temperaturunun sabitliyi dondurmanın keyfiyyətini təmin edən əsas səbəblərdəndir.

Sutka ərzində 300-400 qramdan çox dondurma yemək tövsiyə edilmir, çünki normadan artıq istehlak yuxarı tənəffüs yollarının iltihabına, piylənməyə, qan təzyiqinin yüksəlməsinə səbəb ola bilər.

Bütün bunlarla yanaşı, dondurmanın bir sıra faydaları var. Dondurma yüksək qidalılıq dəyərinə malik, orqanizm tərəfindən asan həzm olunan qida məhsuludur. Onun tərkibi orqanizm üçün faydalı olan süd yağları, proteinlər, karbohidratlar, mineral maddələr və vitaminlərlə zəngindir. Tərkibində kalsiumun miqdarının yüksək olması sümüklərin möhkəmləndirilməsinə yaxşı təsir göstərir.

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə Ordusu BARKAN yerüstü pilotsuz vasitəni silahlanmaya daxil edir

Türkiyənin ilk orta sinif BARKAN çoxməqsədli pilotsuz yerüstü vasitəsi qoşun sınaqlarının keçirilməsindən ötrü bu ilin iyununda Silahlı Qüvvələrin istifadəsinə veriləcək. Bu barədə "Poliqon" "Anadolu Agentliyi"nə istinadən xəbər verir.

HAVELSAN şirkəti rəsmisinin verdiyi məlumata görə, pilotsuz sistemlərin inkişafı ilə bağlı işlərə təxminən ilyarım-iki il əvvəl başlanılıb.

BARKAN-ın bir sıra sınaqlardan uğurla keçdiyini deyən şirkət rəsmisi əsas məqsədlərinin bu aparata süni intellekt tətbiq etmək olduğunu bildirib: "Vacibdir ki, bu maşınlar pilotsuz uçuş aparatları, digər pilotsuz yerüstü nəqliyyat vasitələri və ya digər pilotlu nəqliyyat vasitələri ilə birgə tapşırıqları yerinə yetirsin, həmçinin, səhra şəraitindəki qoşunların səmərəliliyini artırsın. Bu aparatların səhra sınaqlarına iyul



və ya avqust aylarında başlamağı planlaşdırırıq. Ümid edirik ki, ilin sonuna qədər BARKAN silahlanmaya daxil olacaq".

BARKAN pilotsuz yerüstü vasitəsi kəşfiyyat və müşahidə üçün, eləcə də ərazidəki qoşunların atəş dəstəyi üçün təyin edilib.

### Rusiya xüsusi təyinatlıları və kəşfiyyatçıları "Udav"la silahlanır

Rusiya "TsNİİtoçmaş" şirkətindən Müdafiə Nazirliyinin xüsusi təyinatlı qüvvələr və kəşfiyyat bölmələri üçün 9×21 mm çaplı "Udav" tapançası alır.

"Poliqon" "İzvestiya" qəzetinə istinadən xəbər verir ki, istehsalçı ilə imzalanan müqaviləyə əsasən, 384 milyon rubl (təqribən 5,3 milyon ABŞ dolları) dəyərində bir neçə on min yeni silahın alınması planlaşdırılır.



"Udav" tapançası ilə xüsusi təyinatlı qüvvələrin və kəşfiyyat bölmələrinin döyüşçülərindən başqa adi hərbçilər – sürücülər, rabitəçilər, maddi-texniki təminat üzrə mütəxəssislər də yeni tapança ilə silahlanacaqlar. "Udav" tapançasının alınması iki əsas versiyada həyata keçiriləcək: ümumqoşun təyinatlı 6P72 indeksli və xüsusi təyinatlı 6P72-1 indeksli. Sonuncunun dəstinə səsboğucu və lazer hədəfgöstərici daxildir. Müqavilə üzrə hər iki versiyanın tədarükünə bu il başlanmalı və 2023-cü ilin noyabr ayınadək tamamlanmalıdır.

# Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Kamal Bayramova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000